# Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin şanlı səhifəsidir

**Dövlətimizin tarixində mühüm yer tutan və onun parlaq səhifələrindən birini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 100 il ötür. 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik respublika kimi yaranan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin, xalqımızın azadlıq uğrunda apardığı mübarizənin, milli özünüdərkin, oyanışın məntiqi nəticəsi idi. Xalq Cümhuriyyətinin yaradılması ilə on illərlə Çar Rusiyasının əsarəti altında qalan xalqımızın dövlətçilik ənənələri bərpa olundu. Hər şeydən əvvəl milli dövlətçiliyimizə qovuşmuş xalqımız istiqlalın, azadlığın nə demək olduğunu bir daha gördü. Şərqlə Qərbin dəyərlərini özündə birləşdirən nümunəvi dövlət və cəmiyyət idi.**

28 may 1918-ci il Tiflis şəhərində qəbul edilən "İstiqlal Bəyannaməsi" Azərbaycan Xalq Cümhuriyyətinin prinsiplərini dünyaya bəyan etdi. Bu ilk hüquqi sənəd Azərbaycan xalqının öz müqəddəratını təyin etmək, insanların hüquq bərabərliyinə hörmət, xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinc, əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə hörmətlə yanaşmaq, Avropada ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsi kimi mühüm prinsipləri özündə əks etdirirdi. Bütün ölkə vətəndaşlarına eyni hüquqlar verilərək irqi, milli, dini bərabərsizlik aradan qaldırıldı. "İstiqlaliyyət Bəyannaməsi" bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik idarə üsulunun — parlamentli respublikanın yaranması demək idi. Müsəlman Şərqində birinci dəfə demokratik dövlətin idarəetmə təsisatları formalaşdırıldı. Cümhuriyyət hakimiyyətinin dövlət quruculuğundakı atdığı mühüm addımlardan biri də dövlət rəmzlərinin qəbul edilməsi oldu. Cümhuriyyət quruculuğu dövründə Parlament və nizami Milli Ordudan başqa müstəqil respublikanın ədliyyə, məhkəmə, prokurorluq və polis orqanları da yaradıldı.

AXC qurucuları mürəkkəb ictimai-siyasi şəraitdə Azərbaycanın müstəqilliyini elan edib 23 aylıq qısa müddətdə bütün sahələrdə demokratik islahatlar həyata keçirərək ölkənin gələcək müstəqilliyi üçün dövlətçilik ənənələri formalaşdırıblar. Cümhuriyyət yarandığı gündən xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Həm xaricdən, həm də daxildən müxtəlif qüvvələr Azərbaycanın müstəqil dövlət kimi inkişafına mane olurdular. Sovet Rusiyasının işğalına məruz qalan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonlarında yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində müasir mərhələnin başlanğıcını qoyub.

Cümhuriyyət tarixinə ən böyük qiyməti verən ulu öndər Heydər Əliyev olmuşdur. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və xilaskarı Heydər Əliyev AXC-nin 80 illik yubileyi münasibətilə Milli Məclisin təntənəli iclasında demişdir: "Azərbaycan Xalq Cümhuriyyəti az müddət yaşayıbdır. Ancaq o, XX əsrdə Azərbaycan xalqının suverenliyinin təməlini qoyubdur. Məhz buna görə də Azərbaycanın bütün vətəndaşları — Biz Azərbaycan Xalq Cümhuriyyətini yaradanları, o dövrdə qəhrəmanlıq nümunələri göstərən insanları böyük minnətdarlıq hissləri ilə yad edirik".

1920-ci il aprelin 28-də süqut etməsinə baxmayaraq, qısa müddət ərzində həyata keçirilən tədbirlər, dəyərli işlər xalqımızın dövlətçilik tarixində böyük izlər buraxdı. Bu tədbirlər xalqımızın milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərdiyi kimi, bolşevik işğalından sonra da müstəqillik hissləri azərbaycanlıları heç zaman tərk etmədi, azadlıq ideyaları şüurlara hakim kəsildi.

Cümhuriyyətin süqutu onu göstərdi ki, müstəqilliyi qoruyub saxlamaq, müdafiə etmək onu əldə etməkdən daha da çətindir. Ümummilli liderimiz Heydər Əliyevin "Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq, möhkəmləndirmək daha da çətindir" fikrinə diqqəti çəkəndə görürük ki, məhz Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində müstəqilliyimiz əbədi və sarsılmaz olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tarixindəki rolunu yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev 1918-ci ildə dövlət müstəqilliyinin qazanılmasında xidmətləri olmuş şəxslərin adlarını Azərbaycan xalqının yaddaşına əbədi həkk olunduğunu bildirmişdir: "1918-ci il may ayının 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur".

Böyük öndər Heydər Əliyev milli tariximizin üzə çıxarılmasında nəinki siyasi xadim, eyni zamanda böyük tarixçi kimi yüksək xidmətlər göstərmişdir. Ümummilli liderimiz AXC-nin tarixinə böyük vətənpərvərlik mövqeyindən yanaşaraq deyirdi ki: "Biz daim tariximizi dərindən öyrənməli, onu gələcək nəsillərə olduğu kimi çatdırmalıyıq. Onlarda tariximizi öyrənmək həvəsini artırmalıyıq. Qoy gələcək nəsillər tariximizi doğru, düzgün öyrənsinlər, tədqiqatçılarımız araşdırsınlar".

Ulu öndərin yaratdığı, dövlətimizin bizə verdiyi ən böyük töhfələrdən biri də məhz milli tariximizi öyrənmək imkanını əldə etməyimizdir. Heydər Əliyev siyasətinin layiqli davamçısı, dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə yüksək dəyər vermiş, onun tarixinin dərindən öyrənilməsi məqsədilə bu sahədə fundamental elmi əsər olan "Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası" nəşr olunmuşdur. Bu gün dövlət səviyyəsində xaricdən arxiv materialları gətirilir və bu sənədlərin əsasında tarixçilər, tədqiqatçılar tərəfindən Cümhuriyyət tariximiz öyrənilir, araşdırmalar aparılır.

Prezident İlham Əliyev 16 may 2017-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar mühüm Sərəncam imzalamışdır. Sərəncama əsasən, 2018-ci il "Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Bunun dövlətimiz və xalqımız üçün tarixi hadisə olduğunu və müstəsna əhəmiyyət kəsb etdiyini hamımız dərk edirik. Ölkə Prezidenti İlham Əliyevin imzaladığı bu sərəncam 1918-1920-ci illərdə dövlət başçısının Azərbaycan xalqına istiqlal, azadlıq bəxş edən Azərbaycan Xalq Cümhuriyyətinin irsinə sadiqliyi və Cümhuriyyətin qurucularına olan hörmət və ehtiramından irəli gəlir. Bu tarixi Sərəncam ölkə rəhbəri tərəfindən müsəlman Şərqində ilk parlamentli respublikanın fəaliyyətinə verilən ən böyük qiymətdir. "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində yubiley tədbirləri respublikamızın hər yerində, hətta xarici ölkələrdə də həyata keçirilir. Azərbaycan mədəniyyətini, tarixini daim xarici ölkələrdə təbliğ edən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və ölkəmizin Fransadakı səfirliyinin təşkilatçılığı ilə Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirilmişdir. Tədbirdə Cümhuriyyət dövrünə aid foto və video materiallar sərgi təşkil olunmuşdur. Bundan başqa, səfirliklərimiz tərəfindən Vaşinqtonda, Ankarada, Romada, Londonda, Berndə, Tiflisdə, Ukraynada və digər ölkələrdə həmin ölkələrin rəsmi şəxslərinin iştirakı ilə həyata keçirilən silsilə tədbirlər müstəqilliyimizə verilən önəmdir və qürurvericidir. 28 May —Respublika Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən hər il rəsmi qəbullar təşkil olunur, bu əlamətdar gün münasibətilə dövlət başçısı xalqımızı təbrik edir. Prezidentimizin Cümhuriyyət dövrünü və müstəqillik yolunda fədakarlıq etmiş insanları yad etməsi, onların xatirələrinə hörmətlə yanaşması bu gün hər bir azərbaycanlıda vətənpərvərliyi möhkəmləndirir və ulu öndərin irs qoyub getdiyi müstəqilliyimizə olan sədaqəti, bağlılığı daha da artırır. Xalqımız bu günü hər il bayram edir. Tariximizə təəssübkeş münasibət bəsləyən dövlətimizin başçısı İlham Əliyev Fransanın paytaxtı Parisdə olarkən Cümhuriyyət xadimlərinin məzarını ziyarət etməsinin özü də bir sədaqət nümunəsidir.

Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci ildə qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışından sonra nail oldu, bu qayıdış milli müstəqilliyimizi itirmək təhlükəsindən xilas etdi. Ulu öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanın dövlət müstəqilliyi hər cür daxili və xarici təhdidlərdən qurtuldu. Çağdaş Azərbaycan tarixində həqiqi müstəqillik mərhələsi başlandı. Heydər Əliyevin böyük potensiallı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qorumaq, inkişaf etdirmək idi.

Heydər Əliyev respublikamızı Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi və dövlətçilik atributlarını bərpa etdi. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır. Onun bütün həyatını öz xalqına bəxş etmiş siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçilik məktəbinə çevrilmişdir. Ulu öndərin layiqli siyasi varisi Prezident İlham Əliyev isə bu məktəbin ən layiqli yetirməsidir.

Müstəqil daxili və xarici siyasət yeridən Azərbaycan artıq təkcə regionda deyil, beynəlxalq miqyasda da söz sahibi olan ölkə və strateji tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dövlətimizin milli maraqlarını bütün sahələrdə inamla təmin edərək Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. Onun uzaqgörən siyasəti nəticəsində qazandığımız bütün uğurlar əminliklə söyləməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir. Bu müstəqilliyi Azərbaycanın əlindən ala biləcək hansısa bir qüvvə yoxdur.

Cənab İlham Əliyevin prezidentlik fəaliyyətinə başlamasından ötən 15 ilə nəzər salanda belə qənaətə gəlmək olur ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan dövlətçiliyi daha da möhkəmləndirilib, ictimai-siyasi həyatın bütün sahələrində inkişafa nail olunub və bunlar onu deməyə əsas verir ki, ölkəmizi qarşıda daha böyük nailiyyətlər gözləyir.

**Eldəniz ABDİYEV,**
**"Məişət Maye Qaz" QSC-nin müfəttişi, Yeni Azərbaycan Partiyası "Məişət Maye Qaz" QSC ilk təşkilatının sədri.**